Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.22.

## *Necdet Ünüvar:*

# "Azərbaycan elminin uğurlarına Türkiyənin uğurları qədər sevinirik"

**Bu gün AMEA ilə Ankara Universiteti arasında ciddi əməkdaşlıq əlaqələri var. Təsadüfi deyildir ki, 80 illik yubileyi biz öncə Ankara Universitetinin ev sahibliyilə Türkiyə Elmlər Akademiyası ilə birlikdə geniş bir heyət ilə qeyd etmişik. Bu baxımdan, biz AMEA-nın bugünkü uğurlarını və yüksəldiyi səviyyəni görəndə öz uğurlarımız qədər sevinirik və bunu Türkiyə və Azərbaycanın ortaq qazancı hesab edirik.**



Bu fikirləri Ankara Universitetinin rektoru professor Necdet Ünüvar deyib. Rektor Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində iştirakından məmnunluğunu ifadə edib: "Biz AMEA ilə, o cümlədən hörmətli Azərbaycan alimi və hazırda Akademiyanın prezidenti olan İsa Həbibbəyli ilə uzun illərdir sıx əməkdaşlıq edirik".

N.Ünüvar əlavə edib ki, bu gün Azərbaycandakı akademiklərlə, universitetdə çalışan müəllimlərlə sıx əlaqələr, ortaq elmi məsləhətləşmələr mövcuddur: "Bu baxımdan, ortaq planlarımızı, ideyalarımızı daha da genişləndirməli və inkişaf etdirməliyik. Həm də ona görə etməliyik ki, Türkiyə və Azərbaycan xalqlarının ortaq qardaşlıq maraqları bunu tələb edir".